BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# "Qarabağ məsələsi" ətrafında artan fəallıq

Fuad Abdullayev

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

MART 2025

# “Qarabağ məsələsi” ətrafında artan fəallıq

## Giriş

Ermənistanın müxtəlif siyasi qüvvələri, diaspor təşkilatları və qondarma rejimin keçmiş nümayəndələri Azərbaycanın suverenliyinə qarşı irredentist mövqelərini davam etdirməkdədirlər. Onlar beynəlxalq səviyyədə siyasi və hüquqi platformalar yaradaraq “Qarabağ məsələsi”ni yenidən gündəmə gətirməyə və Azərbaycanın ərazi bütövlüyünə kölgə salmağa cəhd edirlər. Xüsusilə 2025-ci ilin fevral ayında həmin fəaliyyətlərdə müəyyən fəallıq müşahidə edilməkdədir. Qeyd edək ki, heç bir beynəlxalq normalara söykənməyən və açıq şəkildə Azərbaycanın suveren ərazilərinə qarşı ərazi iddiaları ehtiva edən bu açıqlamalar təəssüflər olsun beynəlxalq ictimaiyyət arasında hələ də müəyyən dəstək görür. Həmin qrupların açıqlamalarından və bu yöndə atdığı addımlardan belə qənaətə gəlmək olar ki:

- **Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə ehtimal edilən hərbi müdaxiləni gələcəkdə legitimləşdirilmək məqsədilə müəyyən hüquqi platformanın yaradılmasına səy göstərilir;**
- **Ermənistanda və onun xaricində yaşayan ermənilər arasında irredentist düşüncənin təbliğatında radikal erməni diasporu baş rol oynayır;**
- **beynəlxalq ictimaiyyəti əsas məqsəddən yayındırmaq üçün Qarabağ ermənilərinin guya haqlarının pozulması və “deportasiya edilməsi” narrativi irəli sürülür.**

## Erməni diasporunun fəaliyyətləri

Fevral ayının 3-də Livanda Daşnaksütyunun 134-cü ildönümünə həsr edilmiş tədbir zamanı çıxış edən Daşnaksütyunun üzvü, fransalı erməni Hovsep Ter-Qevorkyan bildirib ki, hazırkı Ermənistan reallığında Qarabağ uğrunda mübarizə aparan qüvvələrin sayı azalıb. Lakin Daşnaksütyun mövcud reallığı qəbul etməyəcək, bütün mümkün fədakarlıqlar bahasına olsa da “Qarabağ məsələsi”ni Ermənistanın gündəmində saxlayacaq və Qarabağ səhifəsini bağlamağa müvəffəq olduqlarını düşünən hər kəsin planlarını və hüzurunu pozacaq. O, əlavə edib ki, ləğv edilmiş qondarma rejimin “dövlətçiliyi”nin əsasları qorunmalı və onun “dövlət” orqanlarının öz fəaliyyətlərini davam etdirilməsinə köməklik göstərilməlidir. H.Ter-Qevorkyan

Qarabağ probleminin aktuallığını saxlamaq üçün bu strukturların qorunmasını zəruri şərt olduğunu hesab edib. Qarabağ ermənilərinin geri qayıtması məsələsinə də toxunan Qevorkyan, qeyd edib ki, Daşnaksütyun olaraq biz, Qarabağa qayıtmaq hüququmuzu saxlayacağıq və bu istiqamətdə müvafiq işlər görəcəyik. Dəqiq beynəlxalq təminatların həyata keçirilməsi yolu ilə Qarabağda azad, suveren və təhlükəsiz həyat yaşamaq imkanını bərpa etməliyik.[1]

Həmin tədbirdə çıxış edən Daşnaksütyunun Livan Mərkəzi Komitəsinin nümayəndəsi Hakob Baqratuni isə qeyd edib ki, anti-milli yanaşma məğlub olduğu, milli dəyərlər sistemi və milli ideologiya geri qayıtdığı zaman, biz mütləq əsl bayramı, zəfər bayramını birlikdə qeyd edəcəyik. Ermənistan erməni xalqına qayıdacaq, ordu döyüşə hazır orduya çevriləcək, Qarabağ və bizim "işğal olunmuş" torpaqlar qayıdacaq. Baqratuni onu da vurğulayıb ki, bütün bunları həyata keçirmək uğrunda mübarizə amansızdır və biz bu mübarizəni birgə və cəsarətlə aparacağıq.[2]

Feralın 12-də Fransadakı Erməni Təşkilatlarının Koordinasiya Şurası, Parisin Vəkillər Kollegiyasının və Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) hüquqşünası Sevak Torosyan vasitəsilə BCM-nin prokuroru ilə əlaqə yaratmağa nail olub. Yaradılmış əlaqə nəticəsində BCM-nin prokuroruna bəzi xahişlər təqdim olunub. Təqdim edilən xahişlər arasında Azərbaycanın ərazi bütövlüyünü hədəf xahiş də olub. Belə ki, Roma statutunun 15-ci maddəsi əsas göstərilərək təqdim edilən xahişdə "Qarabağın "mübahisəli" ərazisi termini istifadə edilib və "mübahisəli" ərazi üzərində məhkəmənin ərazi yurisdiksiyasına dair məsələ ilə bağlı ilkin İstintaq Palatasına müraciət olunması istənilib.[3]

## Ləğv edilmiş qondarma rejimin nümayəndələrinin açıqlamaları

Fevral ayının 17-də ləğv edilmiş qondarma rejimin keçmiş parlamentinin millət vəkili Vahram Balayan verdiyi müsahibə zamanı bildirib ki, ləğv edilmiş qondarma rejimin keçmiş prezidenti parlamentin səlahiyyətlərinin müddətinin uzadılması barədə haqqında fərman imzalayıb.[4] V.Balayan qeyd edib: "Müharibə və ya fövqəladə vəziyyət elan edildikdə, yaxud seçkilərin təşkili qeyri-mümkün olduqda, prezidentin, parlamentin səlahiyyətlərini dayandırmaq üçün Konstitusiyada təsbit olunmuş hüququ var. Qanunda göstərilir ki, bu, yeni seçkilər keçirilənə qədər davam etməlidir.

[1] https://www.arfd.am/new/news/77201/
[2] https://www.aztagdaily.com/archives/639807
[3] https://www.facebook.com/sevag.torossian.92/posts/10164828556969552?ref=embed_post
[4] https://hraparak.am/post/7493c5598408cd327ef3a552a0447f50

O, bu hüququndan istifadə edərək, analoji fərman imzalayıb. Təbii ki, biz istərdik ki, seçkilər Konstitusiyanın tələb etdiyi şəkildə təşkil olunsun, lakin bu gün vəziyyət elədir ki, bütün bunları həyata keçirmək çətindir. Ona görə də məsələ ondadır ki, "Artsax Respublikası"nın hakimiyyəti nəyin bahasına olursa-olsun qorunub saxlanmalıdır, xüsusən də xalq tərəfindən seçilən hakimiyyət. Dünya durağan deyil, daim dəyişir və hətta bizim ağlımıza gəlməyən vəziyyətlərin yaranması tamamilə mümkündür, ona görə də bu fürsətdən istifadə etməliyik. Hesab edirəm ki, bu baxımdan hakimiyyət bundan sonra da fəaliyyət göstərməlidir ki, onlar xalqın kollektiv iradəsini reallığa çevirə bilsinlər." O, həmçinin onu da əlavə edib ki, imkanlarımız çox məhduddur, lakin burada əsas olan "Artsax"ın dövlət orqanlarını qorumaq və gələcəkdə bu imkanlardan istifadə etməkdir. Mən Qarabağ ermənilərinin kollektiv qayıdışı məsələsini reallığa çevirməyi nəzərdə tuturam. Təsadüfi deyil ki, həmin dövlət orqanlarından biri olan "parlament" bu məsələlərlə məşğul olan müvafiq komitə yaradıb. Hazırda müxtəlif ölkələrdə və qurumlarda belə imkanların tapılması və müəyyən edilməsi üçün müzakirələr aparılır.[5]

Fevral ayının 20-də isə "Qarabağ" hərəkatının 37-ci ildönümü münasibətilə ləğv edilmiş qondarma rejimin keçmiş parlamenti bəyanat verib. Bəyanatda bildirilib ki, biz Qarabağ erməniləri olaraq mübarizəni davam etdirəcəyik. Qarabağ ermənilərinin təhlükəsizlik və ləyaqətli şəkildə "vətən"ə qayıtmaq hüququ təkcə qanuni deyil, həm də beynəlxalq hüququn müəyyən edilmiş norma və prinsipləri kontekstinə tam uyğundur.[6]

Qeyd edək ki, 20 fevral tarixində "Qarabağ" hərəkatının 37-ci ildönümü münasibətilə İrəvanda eyni zamanda tədbir də keçirilib. Baş tutan tədbirdə təşəbbüs qrupunun üzvləri və keçmiş hərəkatın fəalları iştirak ediblər. Müəyyən edilib ki, onlar arasında Arkadi Karapetyan, Serqey Şahverdyan, Vahram Balayan və Qaqik Baqunts kimi şəxslər olub. Tədbirdə çıxış edən ləğv edilmiş qondarma rejimin keçmiş parlament sədrinin vəzifəsini icra edən Q.Baqunts bildirib ki, Qarabağ erməniləri arasında Qarabağa qayıtmağa ümid və inamın sarsılmaz qalması üçün bütün lazımi addımları atmaq lazımdır.[7]

Bununla yanaşı, Q.Baqunts və S.Şahverdyan müxbirlərin suallarını da cavablandırıb. Q.Baqunts bildirib ki, bugün onlar "öz ölkələrini" idarə etmək, orada ləyaqətlə yaşamaq imkanından məhrumdurlar. Lakin bununla belə, Qarabağa kollektiv şəkildə

---

5 https://www.arfd.am/new/news/77422/
6 https://www.arfd.am/new/news/77489/
7 https://www.arfd.am/new/news/77356/

qayıtmaq və oranın yenidən ermənləşdirilməsi üçün müvafiq səylər göstərmək əzmindədirlər və buna tam ümid edirlər. O, həmçinin əlavə edib ki, bu və ya digər amillərə görə Qarabağ hazırda ermənilərdən məhrum edilib, lakin ümid edirəm ki, bu müvəqqətidir. S.Şahverdyan isə qeyd edib ki, mübarizə o zaman uğurlu ola bilər ki, biz Ermənistanla bir dövlət altında birləşə bilək.[8] Digər müsahibəsində S.Şahverdyan bildirib: "Bugünkü şəraitdə bizim edə biləcəyimiz yeganə şey "Artsax"ın milli-azadlıq hərəkatının ruhunu qoruyub saxlamağa, əlverişli şərait yaranana və bu ruh özünü yeni Qarabağ hərəkatında təzahür etdirənə qədər onu ötürməyə çalışmaqdır."[9]

Fevral ayının 23-də isə "Artsaxın Ehtiyatda olan Zabitlər İttifaqı"nın üzvləri "Yerablur" adlanan hərbi panteonda olublar. Panteona səfər çərçivəsində İttifaqın üzvü, ehtiyatda olan polkovnik-leytenant Vahram Hakobyan mətbuatın suallarına cavab verib. O, qeyd edib: "Hökumətlər gəlib-gedir, insanlar qalır, ideya qalır və bu ideyanı inkişaf etdirmək lazımdır. Hakimiyyətin mövqeyindən asılı olmayaraq, milli azadlıq mübarizəsinin öz prinsipial ideologiyası olduğu müddətcə hər şeyi üstələyən əsas ideyamız, strukturlarımız var." Qarabağı güc vasitəsilə qaytarmaq ehtimalına dair ünvanlanan suala isə sonuncu bildirib ki, bizim resurslarımız var, qalır sadəcə Vazqen Sarqsyan kimi bir lider tapmaq, hansının ki, bayrağı altında biz birləşə bilərik.[10]

**Ermənistan müxalifətinin açıqlamaları**

Ermənistanın Daşnaksütyun partiyasının nümayəndəsi, parlamentin "Ermənistan" fraksiyasından olan millət vəkili Armen Rüstəmyan parlamentdə çıxışında mövcud geosiyasi hadisələr fonunda Ermənistan ətrafında yaranan təhlükəsizlik təhdidlərinə toxunub. O, qeyd edib ki, Daşnaksütyunun yanaşmalarını bölüşən hər kəslə əməkdaşlığa, o cümlədən ləyaqətli və təhlükəsiz Ermənistan və "Artsax" uğrunda döyüşməyə hazırdırlar.[11]

"Miatsum" hərəkatının koordinatoru, Ermənistanın "Demokratiya" partiyasının sədri Aram Sarqsyan 18 fevral tarixində fevral ayının 20-də "Qarabağ" hərəkatının 37-ci ildönümünə həsr edilmiş tədbirdə bildirib: "Söhbət həqiqətən də dövlətin formalaşması və qorunub saxlanılması üçün strateji əhəmiyyət kəsb edən ərazinin

---

[8] https://www.youtube.com/watch?v=sq-fpFKZVLc
https://www.youtube.com/watch?v=2dP2npY9qUk&t=26s
[9] https://www.arfd.am/new/news/77587/
[10] https://www.youtube.com/watch?v=epPfU2BaXOA&t=70s
[11] https://www.youtube.com/watch?v=nQQNiaIBv1c

qaytarılmasından gedir. “Artsax”ın yoxluğu Ermənistanın məhvi deməkdir. Beləliklə, bizim sözümüsün əsası odur ki, bəli, biz millətin elitasını yenidən formalaşdırmalıyıq. Biz dünyaya bir daha göstərməliyik ki, erməni xalqı belə məhvedici siyasətə dözməyəcək və Qarabağ əhalisinin Qarabağa qayıtması təmin edilməlidir. Belə olan halda indiki hakimiyyətin başında dayanan adamın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıması ilə bağlı bu biabırçı bəyanatını nəhayət ləğv edəcəyik.”[12]

Ermənstanda müxalifət tərəfindən dəstək görən “Müqəddəs mübarizə” hərəkatının başçısı, keşiş Baqrat Qalstanyan fevral ayının 20-də “Qarabağ” hərəkatının 37-ci ildönümünə həsr edilən aksiyada çıxış zamanı qeyd edib: “Az öncə bir jurnalist “Artsax”a qayıtmağın mümkünlüyü barədə soruşdu. Həyatda hər şey mümkündür. 37 il əvvəl insanlar məhz belə qarın altında öz qurtuluşunu əldə edərkən, sonra nə olacağını heç kim düşünmürdü. Lakin “Artsax” “azad” edildi, amma ilk növbədə Ermənistan azad edildi. Ermənistanın azad edilməsi “Artsax”ın “azadlığının” təminatı oldu. Eyni şey bu gün də olacaq.”[13]

Fevral ayının 20-də “Ermənistan” fraksiyasının rəhbəri Seyran Ohanyan yerli mətbuat orqanlarına bəzi açıqlamalar verib. S.Ohanyan ləğv edilmiş qondarma rejim uğrunda mübarizənin 37-ci ildönümü münasibətilə mövcud reallıqla bağlı suala cavab olaraq bildirib ki, bir nəticə var o da, öz kimliyimiz uğrunda və Qarabağın geri qaytarılması uğrunda mübarizədir. O, Ermənistanla Azərbaycan arasında münaqişənin bitmədiyini, əksinə, daha da dərinləşdiyini vurğulayıb.[14]

## Nəticə

Hadisələrin təhlili onu deməyə əsas verir ki, həm Ermənistan daxilində, həm də erməni diasporunun radikal qanadının təsiri altında olan qruplar Qarabağa dair iddialarını davam etdirir və bu istiqamətdə müxtəlif addımlar atırlar. Bu qruplar beynəlxalq hüquq mexanizmlərindən sui-istifadə edərək beynəlxalq hüquqa və reallıqlara zidd iddialar irəli sürür və bununla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü açıq şəkildə şübhə altına almağa və gələcəkdə mümkün münaqişəyə zəmin yaratmağa çalışırlar. Habelə, “Qarabağ məsələsi”ni yenidən aktuallaşdırmaq və regionda yeni münaqişə yaratmağa cəhd edirlər. Qeyd etmək lazımdır ki, revanşist meyilli qüvvələrin beynəlxalq ictimai dəstək alaraq verdiyi açıqlamalar bölgədə sülh prosesinə ciddi təhlükədir. Xüsusilə beynəlxalq

[12] https://www.youtube.com/watch?v=se7E92_ip-o
[13] https://www.youtube.com/watch?v=GcgxzfmXfiI
[14] https://www.youtube.com/watch?v=sMyXhIxcXJ8&t=174s

ictimaiyyətin əksər hissəsi ehtiyatda olan hərbi qulluqçuların, eləcə də Ermənistanda deputat statusu daşıyan şəxslərin irredentist ideoligiyasından irəli gələn bu açıqlamalarını görməməsi, yaxud bunu görməzdən gəlməsi münaqişə ehtimalını daha çox artırır. Lakin bir məsələ dəyişməz olaraq qalır, o da, Azərbaycanın öz ərazi bütövlüyünü tam şəkildə qoruyub saxlayacağı və heç bir irredentist təşəbbüsə güzəştə getməyəcəyi faktıdır.

**Müəllif: Fuad Abdullayev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**